AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

# Azərbaycanın ilk peşəkar arxeoloq və muzeyşünası Davud bəy Şərifovun anadan olmasının 130 illiyinə həsr olunmuş “Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu”



V RESPUBLIKA
ELMI KONFRANSININ MATERIALLARI

Bakı - 7. IV. 2015

## MÜNDƏRİCAT

**Abbasova Mehbarə.** Tarix profilli muzeylərin gənclərin tarixi biliklərinin formalaşmasında rolu....................................4

**Abdulova Gülzadə.** Milli geyimlərdə qədim türk damğaları...........................................................................7

**Abdinova Pərzad.** Xalq rəssamı Səttar Bəhlulzadənin gündəlik və albomlarında Məhəmməd Füzuli, Leyli və Məcnun rəsmləri....................................................................................14

**Ağaməmmədov Namiq.** Dağlıq Şirvan iqtisadi-coğrafi rayonunda olan muzeylərin sosial infrastruktur kimi turizmin inkişafı və əhalinin maariflənməsində əhəmiyyəti..................19

**Агаев Фуад.** Отражение этапов развития здравоохранения в конце XIX начале XX веков в фондах Национального Музея Истории Азербайджана....................24

**Агаев Юсиф.** Требования к личности полководца в тюркском трактате «Кутадгу билик»....................................34

**Bağırova Nərmin.** Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyalarında Birinci Dünya müharibəsi hadisələrinə şahidlik edən əşyalar.......................................................................39

**Dadaşov Emin.** XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid fotoşəkillər Azərbaycanın sosial zümrələrinin öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)...........................................................................49

**Джафарова Эльмира.** Средневековые города – музеи нового поколения...................................................................60

**Джафарова Назмин.** Учебный модуль для средних школ «отношение к женщине в семье и обществе в начале XX века на страницах журнала «Молла Насреддин»...........................64

**Əliyeva Nərgiz.** Davud Şərifovun Tarix Muzeyinin inkişafında rolu.....................................................................73

istifadə edilməklə Şirvan regionunun mədəni irsi yerli və xarici turistlərə təqdim olunur[3].

Həmçinin, 2012-ci ildə İlham Əliyevin iştirakı ilə Saatlıda Tarix-Diyarşünaslıq Muzeyi və Rəsm Qalereyasının yeni binasının açılışı olub.

Uzun müddət muzey cəmiyyətin şüurunun formalaşmasına müəyyən mənada təsir edən ictimai yaddaş institutu kimi baxılırdı. Muzeyin bu vəzifəsi tarixən formalaşmışdır. Lakin, biz bu gün ümumilkdə cəmiyyətdə, və bir başa muzeydə baş verən köklü dəyişikliklərin şahidiyik. Müasir cəmiyyətdə öz funksiyalarını ləyaqətlə yerinə yetirmək üçün muzey öz fəaliyyətini ictimai şüurun müasir tələblərinə cavab verən elmi nəaliyyətlər, yeni metod və texnologiyalarla genişləndirməli və bununla yanaşı, əsrlərlə formalaşmış ənənələri qorumalıdır.

**Abdulova Gülzadə**
***Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya elmi fond şöbəsinin müdiri, t.ü.f.d.***

## Milli geyimlərdə qədim türk damğaları

Dünyada Orxon-Yenisey və ya qədim türk əlifbası kimi tanınan yazı nümunəsi zamanla tarixi missiyasını dəyişərək bədii xarakter almışdır. Daha çox xalçalar və xalça məmulatları üzərində rast gəldiyimiz damğa – naxışlar əslində hər biri bir türk boyunun tanıdıcı nişanı, möhürü kimi çıxış edir. Bu naxışların ilkin variantının böyük bir qismi isə türk xalqlarının mifoloji

---

3 Xəlili F. Şamaxı Tarix-Diyarşünaslıq Muzeyi. səh.7; http://history.az/images/articles/2010/10/13/ kitab20101013035150426.pdf)

dünyagörüşü ilə bağlı olaraq meydana gəlmiş, sonralar qoruyucu amulet kimi istifadə olunmuşdur. Bu işarələrin maddi mədəniyyət nümunələri üzərində toxunması və ya həkk edilməsi şamanizmlə bağlı olub, evin bəd ruhlardan, şər qüvvələrdən qorunmasına yönəlmişdi (İslamın qəbul edilməsindən sonra, hətta müasir dövrümüzdə də bu ənənə davam etdirilir. Qurandan ayələr, müqəddəs ziyarətgahların, xüsusən, Məkkənin təsvirləri olan əşyalar evlərin divarlarından, qapıların başından asılır, zinət əşyası şəklində üzərlərdən asılır). Məlumdur ki, şamanlar öz ovsunlarında təsvirlərdən geniş istifadə edir və düşünürdülər ki,



müqəddəs hesab etdikləri obrazların təsvirlərini evlərinə, geyimlərinə, təsərrüfat tikililərinə, mal-qaralarına, ümumiyyətlə, lazım bildikləri istənilən yerə həkk etməklə və yaxud üzərlərində gəzdirməklə uğur əldə edə və ya bəd ruhlardan qoruna bilərlər. Həmin təsvirlərin bir qismi sonralar damğalara, damğalar hərflərə və nəhayət, naxışlara çevrilmişdir. Türkiyəli tədqiqatçı Mustafa Aksoy göstərir ki, "Türk sözlü ənənəsi izlənildiyində onlardan bəzilərinin zamanla qaya rəsmlərinə, qaya rəsmlərinin bəzilərinin damğalara, damğalardan bəzilərinin də yazıya döndüyü aydın olur. Hətta qədim türk əlifbasının bir çox hərfi tarixdə və günümüzdə qarşımıza damğa olaraq çıxmaqdadır. Bu damğaların

bəziləri zamanla türk ailələrinin, boylarının damğası olduğu kimi, bəzən də çox fərqli yerlərdə istifadə olunmuşdur"[1].

Mənbələr damğanın maldar elatlar tərəfindən yarandığını göstərir. Fəzlullah Rəşidəddinin yazdığına görə Oğuz xanın oğlu Gün xanın hakimiyyəti dövründə İrkıl Xoca adlı el ağsaqqalı ona belə bir məsləhət verir: "Oğuz böyük bir hökmdardı və yer üzünü əlinə alıb çoxlu mal-dövlət və saysız heyvan (mal-qara) toplayıb. İndi onların hamısı sizindir. Siz altı qardaşın Allahın izni ilə dörd oğlu, birlikdə iyirmi dörd övladınız var. Ola bilər ki, onlar sonralar öz aralarında vuruşsunlar. Bunun çarəsi budur ki, hər birinin rütbəsi, məşğuliyyəti, adı və ləqəbi verilsin, hər birinin bir nişanı və tamqası olsun"[2]. İlkin olaraq tayfa birliyinin tanıdıcı nişanı, sahibkarın möhürü kimi yaranan damğalar sonralar Orxon-Yenisey əlifbasının hərflərinə çevrilmişdir[3]. Tarixin gərdişi Orxon-Yenisey əlifbasını aradan çıxarsa da, sonralar naxış elementi kimi sənətkarlıq nümunələri (qayaüstü və qəbirüstü abidələrdə, xalçalarda, yaşayış binalarında və s.) üzərində qorunub saxlanmışdır. Ona görə də bu naxışların tarixini Orxon-Yenisey əlifbasının tarixindən çox-çox əvvəllərə aid etmək lazımdır[4]. Daha doğrusu indi naxış elementi kimi istifadə olunan bu damğalar ilkin olaraq ritual təsvir kimi qaya üzərinə həkk edilmişdir. Məsələn, Orxon əlifbasında "çi" kimi tanıdığımız hərf Qobustan qayaüstü təsvirlərdən məlumdur. Əllərini yuxarı qaldırmış vəziyyətdə təsvir edilmiş insanlar, əslində, yallı rəqsi deyil, ritual ayin icra edirlər. Tədqiqatçı

---

1 Mustafa Aksoy. Kaya Resimlerinden Alfabeye Avrasya'da Türk Damgaları, s.70.

2 Rəşidəddin Fəzlullah. Oğuznamə. Bakı, 1992, s.39.

3 Abdullayeva Q. Qədim türk dili. Əlyazması hüququnda. s.58-60

4 Abdulova (Axundova) G. Atalar sözləri və xalq məsəlləri etnoqrafik duyum-yozum kontekstində. Bakı, 2012, s.118-119.

S.Nəsirova bu təsvirlərin "əllərini göyə qaldıraraq ibadət edən şaman təsviri olduğunu qeyd edir[5].

Azərbaycan ərazisində bu elementin maddi mədəniyyyət nümunələri üzərində təsvir olunması faktına ilk dəfə arxeoloq Hidayət Cəfərovun Qarabağda apardığı tədqiqatlar zamanı əldə olunmuş tapıntılarda rast gəlirik. Sümükdən hazırlanmış düymə (taxt və ya at bəzəyi də ola bilər) üzərindəki təsvir bu vaxta qədər rast gəlinən stilizə olunmuş ən qədim "çi"dir. Göründüyü kimi Orxon əlifbasındakı "çi" ilə eynidir. Bundan əvvəl türkiyəli tədqiqatçı T.Gülənsoy bu elementi qırğızlara məxsus e.ə. 1000-ci ilə aid bir təsvirdə aşkarlamışdır[6]. Azərbaycan xalçalarının əksəriyyətində çi elementini görmək mümkündür.





S.Nəsirovanın fikrinə görə bu element ağ şaman təsviridir və evləri bəd ruhlardan qoruyan, xeyir, ruzi gətirən qüvvədir[7]. Qədim türk xalqlarının mifoloji düşüncəsində qoruyucu "iççi" ruhu mövcud olmuşdur və görünür həmin ruhu insanlar ibadətdə olan şaman obrazında təsəvvür etmişlər. Qədim türklər evlərin daxili interyerinin

---

[5] S.Nəsirova. Azərbaycan xalçalarında türk mifologiyasının izləri. AME Xəbərlər (tarix, fəlsəfə, hüquq, N 1, 2014, s.173.
[6] Tuncay Gülənsoy. Orhundan Anadoluya türk damğaları. İstanbul, 198 s.170.
[7] Nəsirova S. göstərilən əsər, s.173

bəzədilməsində və rahatlığının təmin olunmasında bilavasitə xalçalardan istifadə etdiklərinə görə bu elementi daha çox xalçalar üzərinə qoruyucu amulet, eyni zamanda ruzi, bərəkət gətirən qüvvə kimi toxumuşlar. Bu elementin müxtəlif variantları türk tayfalarının tanıdıcı nişanı – damğası kimi qəbul olunmuşdur. "İç çi" elementi Türkiyə, Qazaxıstan, Qırğızıstan, Cənubi Sibir, Azərbaycan türkləri üçün xarakterikdir[8]. Aparılan müqayisə və paralellər elementin türk xalqlarına mənsub olduğunu qəti şəkildə təsdiqləyir. Türk tədqiqatçısı Hikmət Gürçay keçələr üzərində təyin etdiyi bu elementi "eşq yolu" adlandırır[9]. Elementi qeydə alan digər bir türk alimi T.Gülənsoy bu elementi bir neçə əşya üzərində gördüyünü və onun nəzərdən qorunma və uğur rəmzi kimi istifadə olunduğunu bildirir[10]. Daha sonra Zeynilər məscidinin qibləsində divara çapılmış mərmərin üzərində bu elementin



olması islam dininin türk xalqları arasında yayılmasından sonra da ondan istifadə olunduğunu göstərir[11]. Etnoqraf G.Yoloğlunun verdiyi məlumata görə bu damğalar geyimlərin üzərinə də həkk edilirdi. Geyimə baxmaqla insanın hansı tayfaya mənsub olduğunu asanlıqla təyin etmək olurdu. Geyimlər üzərində damğaların

[8] Yenə orada, s.174
[9] H.Gürçay. keçə və keçəçilik. TED. Ankara, 1967, s.32
[10] Tuncay Gülənsoy. Göstərilən əsəri, s.146
[11] Yenə də orada, s.86

toxunması eyni zamanda, bəd nəzərlərdən və şər qüvvələrdən qorunmaq və uğur, ruzi-bərəkət əldə etmək məqsədi daşımışdır.

Etnoqrafiya fondunda mühafizə olunan XVIII əsrə aid 190 saylı sarı rəngli qanovuz parçadan tikilmiş geyim inventar kitabında "sart" geyimi kimi qeydə alınmışdır. Geyimin üzəri bütünlüklə tikmə üsulu ilə bəzədilmişdir. Astarı buta naxışlı çit parçadandır. Kənarları üçkünc formalı tikmə naxışlarla bəzədilmiş qırmızı rəngli parça hissəsi (14x8,5 sm ölçüdə) atma qolları kürəkdə birləşdirir. Qeyd edək ki, bu geyim tipi vaxtilə türk xalqları arasında geniş yayılmışdır və Azərbaycan milli geyimləri arasında əsas yerlərdən birini tutan çəpkənin ilkin formasıdır.

Geyimin arxa hissəsini bəzəyən naxış elementi "iç-çi" və "salur" damğası təsvirindən ibarətdir. Bu elementlər həm qoruyucu amulet, həm də tanıdıcı nişan kimi toxunmuşdur.





Həmin element və ya damğanın geyimin üzərində həkk edilməsi onun sartlara deyil, oğuz tayfalarından biri olan salurlara məxsus olduğuna qəti şəkildə şəhadət verir. Borsunlu kurqanından tapılan digər bir maddi mədəniyyət nümunəsi, e.ə. II minilliyə aid asma bəzək üzərində iç-çi və salur damğasının olması oğuzların da Azərbaycan ərzisində məskunlaşma dövrünün daha qədim tarixə malik olmasını sübut edən dəyərli faktlardır. EF 3571 Əfşarlara məxsus çəpkən üzərindəki təsvirlər elmi ədədbiyytda "əfşar gülü" kimi tanınır. Bu gül təsvirləri də öz əsasını "çi" elementindən götürmüşdür. Məhz, bu element

sayəsində geyimin əfşarlara məxsus olduğu təyin edilmişdir. Atma qollara malik olan geyimin yanlardakı çapığı eynilə Qarabağ çəpkənlərinə xasdır. Geyim qara rəngli məxmər parçadandır. Məxmərin xovu tamamilə getmişdir. Geyimin bütün səthi güləbətin və ipək sapla tikmə üsulu ilə kəmxa parçanın çeşnisinə uyğun tərzdə bəzədilmişdir. Geyim XVIII əsrə aiddir. Topladığımız məlumatlara görə belə çəpkənləri varlı Əfşar bəyləri geyinirdi.



"Çi" elementini Qarabağa məxsus bir küləcə üzərində də izləyə bilərik. Stilizə olunmuş "çi" elementi güləbətin tikmə üsulu ilə məxmər parçadan olan geyimin kürəyinə və qollarına toxunmuşdur. Diqqət çəkən bir məqam ondan ibarətdir ki, tanıdıcı nişanlar və ya damğalar əsasən geyimlərin arxa hissəsinə toxunmuşdur. Bizə elə gəlir ki, bu mifoloji düşüncədən qaynaqlanır. Çünki insan daim qarşını gördüyünə görə şər qüvvələrin arxadan xətər yetirə biləcəyindən qorxur. Ola bilsin ki, şər qüvvələrdən müdafiə olunmaq üçün bu elementlər, məhz, qoruyucu amulet kimi geyimlərin arxa hissəsinə toxunmuşdur.

